Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# Fərqli baxışlardakı Nəriman Nərimanov

## Onun siyasi fəaliyyətinə bəslənilən ikili münasibət şəxsi həyatına yanaşmada da özünü göstərir

**Yüz il bundan əvvəl Nəriman Nərimanov yazırdı: "Azərbaycan ziyalısı tarixin müdrik və sarsılmaz qanunlarına uyğun hərəkət etməlidir". Amma çox təəssüf ki, bu gün bəzi Azərbaycan ziyalıları bu müdrikliyi unudur, nə ziyalı adına, nə də tənqid (çox vaxt təhqir) etdikləri şəxsiyyətə layiq hərəkət edirlər. Son bir neçə ildir ki, bəziləri tərəfindən Mirzə Cəlil "qorxaq", "arvadın arxasında gizlənən", N.Nərimanov "satqın", "manyak" kimi qələmə verilir.**

Əslində ağ heç vaxt qara götürməyib. Bu xalq Mirzə Cəlilin də, N.Nərimanovun da onun oyanışı, tərəqqisi uğrunda etdiklərini çox yaxşı bilir. Pis olan odur ki, bu gün onların şəxsi həyatı daha çox hallandırılır. Məsələn, Nəriman Nərimanova irad tuturlar ki, o, ailə qurmaq, sevmək xatirinə yox, varlanmaq xatirinə evlənib.

Bu haqda tədqiqatçı alim Ədalət Tahirzadə deyir: "Hümmət Partiyasını yaradanlardan, görkəmli ziyalılarımızdan İsa bəy Aşurbəylinin MTN arxivində saxlanan izahatında deyilir: "Hələ inqilabdan əvvəl yoldaş Nərimanov ondan yaşca iki dəfə gənc, vərəmli, cılız və üstəlik eybəcərin birisi olan baldızım Sona xanımla evlənmək istəyirdi. Baldızımın nəğd 20 min manata qədər cehizi vardı. Nərimanovun maddi səbəbdən evlənmək istəməsinə qəzəbləndim və bu evliliyə razılıq verilməsinə qoymadım. Bundan sonra Nərimanovla aramızda anlaşılmazlıq yarandı və salamməleyki də kəsdik. Mənə yenidən "Hümmət"ə keçmək təklif edildikdə Nərimanov şəxsimə qarşı yetərincə ciddi müxalifət hazırladı ki, Bakı varlılarının övladlarını proletar təşkilatına qəbul etməyə ehtiyac yoxdur".

Əvvəla, onu qeyd edim ki, İ.Aşurbəyli 20-ci yüzilliyin əvvəllərində maarifçi, xeyriyyəçi kimi tanınan bir ziyalı olub. Belə bir ziyalının MTN-dəki məktubu özünün yazmasına çox şübhə edirəm. Əgər yazıbdırsa da, bu, onun o zaman (o məktubu yazarkən) sağlam ruhlu (ağlı başında) bir ziyalı olmasına şübhə yaradır (çünki o məktubların, izahatların hansı şəraitdə yazılması məlumdur).

Qaldı ki İsa bəyin baldızı haqqında belə bir fikir söyləməsinə, ailənin təəssübünü çəkməmək, onun söz-söhbətini kənara çıxarmaq bir millət olaraq bizə yaraşmaz. Ola bilsin ki, İsa bəyin baldızından xoşu gəlməyib, ona nifrət edib. Sona xanım eybəcər də, xəstə də olsa, onun baldızı idi. Bir də ki, xəstəlik, cılızlıq, gözəllik, ya eybəcərlik Tanrı tərəfindən insana bəxş edilir. Onun məktubunda baldızını bu şəkildə - "vərəm, cılız, üstəlik eybəcərin birisi" kimi təqdim etməsi, məncə, İsa bəyin nə bəyliyinə, nə də kişiliyinə sığan bir hal idi.

Tədqiqatçı alim daha sonra bildirir: "Deməli, Nərimanov xəstə, yaşca özündən iki dəfə cavan qadınla puluna görə evlənmək istəyirdi. Ona həyat yoldaşı lazım deyildi. Nərimanov tacir qızı Gülsüm xanımla evləndi. Aralarında 30 yaş fərq var idi".

Burada digər bir tarixçi-alim Firdovsiyyə Əhmədovanın fikirlərinə diqqət yetirək. Hər zaman öz sağlam dəlil və fikirləri ilə diqqəti cəlb edən xanım tam əksinə olaraq fikir söyləyir: "Nəriman Nərimanov çox gec ailə həyatı qurub. Bunun da səbəbi vəfat edən qardaşı Salmanın ailəsini saxlayıb onları böyütmək idi. Sonradan həmin uşaqları da özü evləndirib. Salman bəyin sonuncu qızı ailə həyatı qurandan sonra Nəriman Nərimanov şəxsi həyatı ilə məşğul olmağa başlayıb. Əslən Şamaxıdan olan bir seyid ailəsinin qızı Gülsüm xanımla evlənib. Abdulla Şaiq Nərimanovla Gülsüm xanımın nişanlanması ilə bağlı



şeir də yazıb. Həmin şeir sonradan "Bakı" qəzetində çap olunub. Onların ailə münasibətlərini səciyyələndirsək, görərik ki, bu, təkcə ər-arvad münasibəti ilə yekunlaşmır. Gülsüm xanım həm də Nərimanova bir dayaq olub. Onun əqidə yoldaşı, silahdaşı kimi hərəkət edib. Düzdür, xüsusi təhsili olmasa da, Nərimanovun ideyasını öz həyat məramına çevirmişdi. 1916-cı ildə çadranı ilk atanlardan biri o qadın olub. Sovet hökuməti qurulandan sonra da gözəl dolanışığı olmayıb. Gülsüm xanım Nərimanovun ağır məşəqqətli həyatını onunla birgə yaşayırdı".

Firdovsiyyə xanımın fikirlərinin doğruluğu dövrünün görkəmli yazarı, canlı salnaməsi olan Abdulla Şaiqin xatirələrində bir daha sübutunu tapır. Belə ki, N.Nərimanovun gec ailə qurmasının səbəbini A.Şaiq "Xatirələrim" əsərində belə şərh edirdi: "N.Nərimanov ailəsinə və qohum-qardaşına olduqca bağlı, qəlbi geniş, dostluqda sadiq və xeyirxah insan idi. Hələ evlənməmiş olduğu halda böyük bir ailə sahibi idi. Qoca anasını, xalasını, iki dul bacısı və onların uşaqlarını, qardaşı uşaqlarını öz himayəsi altına almışdı".

Elə bu faktın özü N.Nərimanovun necə böyük bir insan olduğunu sübut etmirmi? Çünki hər şey ilk olaraq ailədən başlayır. Öz ailəsinə, əzizlərinə, qohum-qardaşına biganə olan insan başqalarına yaxşı ola bilməz. Nəriman Nərimanovun bu böyük insanlığı haqqında onun qohumu Nabat Nərimanovanın da xatirələrində, məqalələrində yetərincə faktlar var.

O ki qaldı N.Nərimanovun var-dövlətə sahib olmaq üçün ailə qurmasına, bu, tamamilə cəfəng fikirdir. Çünki N.Nərimanov özü köklü-söylu, görüb-götürmüş, musiqiyə, elmə bağlı ziyalı bir nəslin, ailənin yetirməsi idi.

N.Nərimanovun ulu babası XVII əsrdə Kaxetiya valisi I İraklinin sarayında eşikağası olub. N.Nərimanovun ata babası Kərbəlayi Nəcəfin atası Allahverdi bəy XIX əsrdə Zaqafqaziyada tanınmış musiqi xadimlərindən idi. Şərq musiqi alətlərində ustalıqla ifa edirdi. Allahverdi bəy Azərbaycan, gürcü mahnılarını məharətlə oxuyardu. O, gürcü şairi Nikolos Barataşvilinin atası ilə dost, Aleksandr Çavçavadze və Qriqol Orbeliani ilə şəxsən tanış idi. Şair Q.Orbeliani Allahverdi bəyin bütün Gürcüstanda məşhur tarzən olduğunu öz müxəmməsində qeyd etmişdir. Şahzadə İohan isə "Kalmasoba" dastanında şah İohan Xelaşvilinin Gürcüstanda Şulaver kəndində şahanə bir məclisdə məşhur tarzən-xanəndə Allahverdi bəylə görüşdüyünü məhəbbətlə qələmə almışdır. Şah İohan Allahverdi bəyin məlahətli səsinə və məlahətlə tar çalmasına heyran qalmışdır. II İrakli Allahverdi bəyin bu xidmətlərini yüksək qiymətləndirmiş və ona bəyzadəlik mənsəbi vermişdir. Allahverdi bəy Tiflisin ən uca və görkəmli yerində, Kürün sağ sahilindəki dağın döşündə özünə xüsusi zövqlə ikimərtəbəli ev tikdirmiş və ömrünün axırına kimi bu mülkdə yaşamışdır.

Sonra bu mülkdə onun oğlu Kərbəlayi Nəcəf öz ailəsi ilə yaşamış, xanımı Həlimə ilə birlikdə doqquz övlad böyüdüb tərbiyə etmişdilər. Onlardan biri də N.Nərimanov olmuşdur.

Qaldı ki N.Nərimanovun ömür-gün yoldaşı ilə arasında 30 yaş fərq olmasına, tarixə diqqət yetirsək, belə faktlarla çox rastlaşarıq. Fərq yaşda deyil. Fərq o ailənin sağlam ailə olmasındadır. H.Z.Tağıyevin də ikinci həyat yoldaşı (birinci rəhmətə getmişdi) Sona xanım ondan 40 yaş kiçik olub, Hüseyn Cavidin xanımı Müşkünaz xanım da Caviddən 20 yaşa yaxın kiçik olub. Firidun bəy Köçərli də ömür-gün yoldaşı Badüsəba xanımdan 19 yaş böyük olub. Amma bu gün də onların ailədaxili tərbiyə üsulları, nizam-intizamları örnək ola biləcək deyilmi?

Bu da bir faktdır ki, N.Nərimanov hələ gənc yaşlarında "Tərcüman" qəzetinin redaktoru İsmayıl bəy Qaspıralı ilə dostluq etmiş, tələbə ikən tez-tez Baxçasaraya gedərmiş. Bu zaman İsmayl bəyin qızı Şəfiqə xanımı görmüş və ona vurulmuşdur (İsmayıl bəy nə tacir idi, nə də qızının 20 min manatlıq cehizi var idi). Lakin Şəfiqə xanım onun bu sevgisinə yox cavabı vermişdir. Deyilənlərə görə (Şəfiqə xanım Nəsib bəy Yusifbəyli ilə ailə qurmuşdu - müəl.), bu yox cavabı uzun illər N.Nərimanovu məyus edib. Beləliklə, 1914-cü ildə Gülsüm xanımla ailə quran N.Nərimanov əslində onu dərk edən, duyan, ideyalarını yaşadan bir amal dostu tapır. Həm siyasi fəaliyyəti, həm də dövlət işlərinin icrası səbəbindən N.Nərimanov bir müddət Həştərxan, Bakı və daha sonra da Moskvada yaşamalı olur. 1919-cu ildə



Qərənfil Dünyamin qızı
Əməkdar jurnalist

N.Nərimanov Moskvada Xalq Xarici İşlər Kommissarlığında Yaxın Şərq şöbəsinin müdiri işləyirdi. Elə bu zaman Tanrı Nərimanla Gülsüm xanıma böyük bir xoşbəxtlik bəxş edir. Ailənin yeganə övladı Nəcəf 1919-cu ilin dekabrında dünyaya gəlir. Gülsüm çox xoşbəxt idi. Xatirələrində yazırdı: "Nəriman uşağa və mənə qarşı çox qayğıkeş idi. Daha çox uşağa diqqət yetirməyimi bildirərdi".

Çox heyif ki, bu xoşbəxt günlərin ömrü az olur. N.Nərimanov vəfat edir. 6 yaşlı övladı ilə qalan Gülsüm xanımın ailə faciəsi başlayır. N.Nərimanovun müəmmalı ölümündən sonra Gülsüm xanım həyatının ağır mərhələsinə qədəm qoyur. Moskvanın Mala Xrintonyevski küçəsində başsız qalan ailə heç kəsin yadına düşmür. Nərimanovun sağlığında Kremlin yeməkxanasında pulsuz qidalanan ailəsi sonradan bu imtiyazdan da məhrum olur. Erkən ailə həyatı qurduğu üçün ali təhsil almayan Gülsüm xanım bütün çətinlikləri ram edərək, Petrovski adına fəhlə fakültəsinin ictimai-iqtisad şöbəsində axşam təhsili alır, gündüzlər isə işləyir.

Bu çətin vəziyyət Gülsüm xanımın bir müddət əsəb xəstəliyindən əziyyət çəkməsinə səbəb olur. " Nəriman da yoxdur, Nəcəfi bu amansız dünyada tək qoyub gedə bilmərəm" - deyən ana çox çətin də olsa taleyin gərdişi ilə döyüşə-döyüşə zamanı ötürə bilir. Bu ötən zamanda Nəcəf tankçı məktəbində oxuyur. Nəyin bahasına olursa-olsun Gülsüm Nərimanın yeganə yadigarını xoşbəxt etmək uğrunda vuruşur. Oğlunu evləndirmək, nəvə görmək, sədaqətli ömür-gün yoldaşının ruhunu şad etmək arzusu Gülsüm xanıma müyəssər olmur. Nəcəf 1943-cü ildə İkinci Dünya müharibəsində tankçı-zabit kimi döyüşlərin birində həlak olur.

Həyat Gülsüm xanıma daha ağır bir zərbə vurur. Yeganə övladını itirməklə bütün ümidini, arzularını itirir. Diri ikən ölü olan Gülsüm xanım bütün günü xəstəxanalarda yaralı döyüşçülərə qulluq edərək sanki oğlunun iyini onlardan alır. Belə yaşamağa davam edən ana 1953-cü ildə 55 yaşında (N.Nərimanov da 55 yaşında dünyasını dəyişib-müəl.) dünyasını dəyişir.

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*